# İnformasiya azadlığı və informasiya təhlükəsizliyi: milli təhlükəsizlik kontekstində

Xalid Niyazov

*AMEA İnsan Hüquqları və Konfliktologiya İnstitutu*

xalid-555@mail.ru

***Xülasə*— Məqalədə informasiya cəmiyyətində dövlət informasiya siyasətinin bir sıra aktual məsələləri nəzərdən keçirilir, söz azadlığı və onun ictimai münasibətlərə təsiri, milli maraqlar, onlara qarşı real təhdidlər və həmin təhdidlərdən müdafiənin təmin olunması kimi prinsipial məqamlara toxunulur. Göstərilir ki, informasiya təhlükəsizliyinin ölkənin milli təhlükəsizlik sistemindəki rolu və yeri dövlət informasiya siyasətinin informasiya təhlükəsizliyi sistemi üzərindən ölkənin milli təhlükəsizliyinin təmin edilməsi üzrə dövlət siyasəti ilə sıx qarşılıqlı əlaqəsi kimi indikatorlar vasitəsilə müəyyən edilir. İKT-nin inkişafı dövlət informasiya siyasətinin çox vacib elementi olmaqla yanaşı, həm də informasiya təhlükəsizliyinin effektiv alətidir.**

***Açar sözlər*— informasiya siyasəti; informasiya təhlükəsizliyi; KİV; milli təhlükəsizlik; milli maraq; söz azadlığı; informasiya cəmiyyəti.***

## I. GİRİŞ

Böyük söz Tanrısı Füzuli “Söz” rədifli qəzəlində günümüzün anlayışı ilə ifadə etsək, informasiyanın kökündə duran sözün qadir olduğu qüdrətdən bəhs edərkən onun sosial enerjisi, yarada biləcəyi ovqatsızlıq və diskomfortla bağlı da poetik “mesajlarını” ifadə etmişdir:

*Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,*
*Edə hər saət səni ol uyqudan bidar söz.*

Bəli, şüurlu insan cəmiyyətinin yarandığı gündən, “homo sapiens”in “homo informatikus”a çevrildiyi vaxtdan xəbər əsaslı söz, informasiya dünyanın, bütöv bir sivilizasiyanın taleyini idarə edən sükana çevrilmişdir.

Söz məfhumu azadlıq anlayışı ilə vəhdətdə səslənir. Biri daha çox bəşəri dəyər, digəri isə hüquqi kateqoriya olsa da, söz azadlığı bütövlükdə insanın təbii-fundamental hüquqlarından sayılır.

## II. İNFORMASİYA SİYASƏTİ VƏ KİV

Əsas strateji əmtəəsinin informasiya olduğu müasir informasiya cəmiyyəti bu sahədə mövcud və potensial münasibətləri, habelə fəaliyyətləri tənzimləmək məqsədilə müvafiq institutların və nəzəri-konseptual sənədlərin hazırlanmasının qayğısına qalır. Dövlətin informasiya siyasətinin yaranmasını da belə bir zərurət səbəbləndirir.

Dövlətin informasiya siyasəti dedikdə, dövlət orqanlarının informasiya sektorunun inkişafına yönəlmiş tənzimləyici fəaliyyəti başa düşülür. İnformasiya sektoru telekommunikasiya, informasiya sistemlərini və kütləvi informasiya vasitələrini, habelə hər növ (işgüzar, əyləncəli, elmi-tədris, xəbər və sair) informasiyaların yaradılması, mühafizəsi, işlənilməsi, nümayişi, ötürülməsi ilə bağlı istehsalın və münasibətlərin məcmusunu əhatə edir [1].

Bu siyasətin həll etdiyi vəzifələr çərçivəsində KİV-in fəaliyyətində birmənalı olaraq önə keçən fərdi, cəmiyyət və dövlət maraqlarının uzlaşdırılmasına və tənasübünə yönəlmiş bütöv bir təşkilati, hüquqi, iqtisadi və texnoloji tədbirlər kompleksini fərqləndirmək mümkündür. Əsas məqsəd kütləvi informasiya vasitələrinə elə bir şəraitin yaradılmasıdır ki, onlar cəmiyyətin və sosial təsisatların obyektiv şəkildə məlumatlandırılması kimi imperativ funksiyalarını effektiv və keyfiyyətli şəkildə yerinə yetirə bilsinlər.

Fikir, söz və məlumat azadlığı, sərbəst düşüncə kütləvi informasiya vasitələrinin və bütövlükdə müasir informasiya cəmiyyətinin söykəndiyi əsas dəyər və məqsədlərdir. Kütləvi informasiya vasitələri hakimiyyətin fəaliyyəti haqqında cəmiyyətin məlumatlandırılmasını və ictimai fikrin ifadə olunmasını təmin edən təsirli vasitədir. Və kütləvi informasiya vasitələrinin bu xüsusiyyətləri onları dövlətin informasiya siyasətinin mühüm sosial institutlarından birinə çevirir.

Qloballaşma və inteqrasiya proseslərinin geniş vüsət aldığı müasir dünyada hər bir kəsin obyektiv və qərəzsiz informasiya almaq imkanının olması obyektiv zərurətə çevrilmişdir. Açıq və şəffaf cəmiyyət quruculuğu yolu ilə gedən müstəqil Azərbaycanda da demokratik inkişafın və vətəndaş cəmiyyətinin mühüm təminatçısı, informasiya istehsalçısı və yayımçısı olan kütləvi informasiya vasitələrinin roluna mühüm yer verilir. Son iki onilliyə yaxın bir dövrdə Konstitusiya müddəaları əsasında həyata keçirilən hüquqi islahatların nəticəsi olaraq bu gün Azərbaycan Respublikası söz, fikir və mətbuat azadlığının yüksək səviyyədə qorunduğu tolerant və plüralist məkan kimi tanınır. Ulu öndər Heydər Əliyevin 6 avqust 1998-ci il tarixli “Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında” fərmanı ilə kütləvi informasiya vasitələri üzərində senzura ləğv olunmuş, bu sahənin inkişafını stimullaşdıran bir sıra zəruri tədbirlər həyata keçirilmişdir. 2001-ci ildə Avropa Şurası kimi mötəbər bir təşkilatın tamhüquqlü üzvlüyünə qəbul olunan Azərbaycan ölkədə söz, mətbuat azadlığının, fikir plüralizminin gücləndirilməsi istiqamətində yeni təcrübə və imkan əldə etmişdir.

Ümumiyyətlə, son dövrlərdə qəbul edilmiş çoxsaylı qanunlar vətəndaşların Konstitusiya ilə təsbit edilmiş söz, fikir və mətbuat azadlıqlarının təminatına və hüquq müstəvisində tənzimlənməsinə sivil imkanlar yaratmışdır. Bu baxımdan Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında”, 19 iyun 1998-ci il tarixli “Məlumat azadlığı haqqında”, 3 aprel 1998-ci il tarixli “İnformasiya, informasiyalaşdırma və

informasiyanın mühafizəsi haqqında", 7 dekabr 1999-cu il tarixli "Kütləvi informasiya vasitələri haqqında", 12 mart 2002-ci il tarixli "Ətraf mühitə dair informasiya almaq haqqında" və digər qanunlarının əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. (Şəkil - 1)

## III. İNFORMASİYA "İNTİBABI"

Müasir dövrdə informasiyanın strateji əhəmiyyətinə görə insan və cəmiyyət həyatında əlahiddə mövqeyə malik olması ilk növbədə XX əsrin ortalarından informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə start götürmüş təkamül əsaslı inqilabla şərtlənir. Xüsusən də elektron kütləvi informasiya vasitələrinin, habelə qısa zamanda hiberinformasiya məkanına çevrilmiş internetin kosmik inkişaf tempi informasiyanın təkcə ictimai münasibətlər sistemində deyil, ümumən sosial- iqtisadi həyatın ən müxtəlif sahələrində – biznesdə, beynəlxalq iqtisadi və siyasi əlaqələrdə, elm və təhsildə, qlobal təhlükəsizlik məsələlərində rolunu görünməmiş dərəcədə gücləndirmiş, informasiyalı cəmiyyətə sürətli keçid prosesini təmin etmişdir.

KİV sahəsində informasiya siyasətinin əhatə etdiyi məsələlərdən biri də milli təhlükəsizliyin tərkib hissəsi olan informasiya təhlükəsizliyinin təmin olunmasıdır. Dövlətin milli təhlükəsizlik siyasəti və onun KİV-də işıqlandırılması ilə bağlı Müstəqil Jurnalistlər Liqasının hazırladığı "Mətbuatda dövlət siyasətinin təbliğinə dəstək" adlı bülletendə göstərilir ki, dövlətlərin milli təhlükəsizlik siyasətləri bir-birindən fərqlənsə də, onlar ən azı üç əsas məsələni əhatə etməlidirlər: beynəlxalq sistemdə dövlətin rolu, dərk olunmuş yerli və beynəlxalq problemlər, hallar və bu problemlərə və hallara qarşı iştirakçı aktorların həyata keçirməli olduğu öhdəliklər [2, 23].

İnformasiya təhlükəsizliyi, onun müasir tex nogen, vətəndaş və informasiya cəmiyyətdəki rolu, anlayışı, məqsəd və vəzifələri barədə bəhs etməzdən əvvə l onun siyasi sistemdəki, belə demək müm künsə, multidistipsional,institutlararası rolu müəyyənləşdirilməlidir.

Dövlət informasiya siyasətinin obyekti cəmiyyətin informasiya sferası, predmeti isə inform asiya münasibətləridir. Qeyd edilən informasiya siyasətinin növlərinə gəlincə, aşağıdakıları göstərmək olar:

Birincisi, bu, informasiyalaşdırma sahəsində həyata keçirilən siyasətdir. Müasir cəmiyyətdə yeni inform asiya texnologiyalarının əhəmiyyəti o dərəcədə yüksəlmişdir ki, hansısa ölkənin sosial və iqtisadi tərəqqisini göstərilən müvafiq texniki təminat olmadan təsəvvür etmək belə mümkün deyil.

İkincisi, KİV informasiyanın toplanması, emalı və yayılması üzrə məsuliyyət daşıyan əsas sosial institutdur. Bu səbəbdən KİV sahəsində dövlət siyasəti, ümumiyyətlə, dövlət informasiya siyasətinin olduqca vacib istiqamətlərindən biridir.

Üçüncüsü, bu, informasiya təhlükəsizliyi və informasiyanın müdafiəsi sahəsində siyasətdir. Sosial və siyasi həyatda informasiyanın rolu onu istənilən antidövlət və anticəmiyyət qüvvələrinin təsir obyektinə çevirir, müasir dövrdə isə belə qüvvələr rolunda təkcə düşmən dövlət yox, həm də terrorçu qruplaşmalar çıxış edə bilərlər. Bundan başqa müasir cəmiyyətdə informasiya konkter iqtisadi məzmun qazanır və bu səbəbdən informasiya təhlükəsizliyi və informasiyanın müdafiəsi dövlətin informasiya siyasətinin vacib istiqamətlərindən biridir.

İnformasiya siyasətinin məqsədi vətəndaşların və ölkənin informasiya-psixoloji təhlükəsizliyini təmin etmək üçün bilgilər sisteminin əldə olunması, dövlət siyasətinin inormasiya-analitik müşayiəti, idarəçiliyin əsas subyekti kimi dövlət tərəfindən qəbul olunmuş qərar və proqramları əhaliyə çatdımaqdır.

Bu mənada müasir dövrdə hər bir dövlət, o cümlədən Azərbaycan üçün aktual məsələlərdən biri də informasiya təhlükəsizlyinin təmin olunmasıdır. İnf orm asiy a təhlükəsizlyi deyərkən informasiya məkanında ölkənin milli maraqlarının müdafiəsi başa düşülür. Burada KİV-in də üzərinə böyük missiya düşür. İlk növ bədə ona görə ki, dünya praktikasında da toplanmış təcrübəyə əsasən, mövqe və mənsubiyyətindən asılı olm ayaraq, KİV informasiya təhlükəsizliyinin daxil old uğu milli təhlükəsizlik və maraqlar istiqamətində dövlət siyasətinin işıqlandırılması və bu zaman obyektivliyin qoru nmasına maksimal dərəcədə riayət etməyə cəhd göst ərməli, bununla bağlı dövlət siyasətinin cəmiyyətə ədalətli, obyektiv və qərəzsiz şəkildə çatdırılmasına çalı şmalıdır. Çünki bu, KİV-in özündən tutmuş cəmiyyətin təhl ükəsizliyinin bərqərar olmasında, onun kənar və təhlükəli qüvvələrin əlində manipulyasiya vasitəsinə çevrilməməsində vacib əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, avqust ayının 29-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin yanında dövlət orqanlarının informasiyanın verilməsinə məsul struktur bölmələrinin və kütləvi informasiya vasitələri rəhbərlərinin müşavirəsi keçirilib. Akademik R. Mehdiyevin geniş məruzə ilə çıxış etdiyi müşavirədə kütləvi informasiya vasitələrinin rəhbərləri və dövlət orqanlarının rəsmi şəxslərinin iştirakı ilə Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi ilə bağlı aktual məsələlər müzakirə edilib, ənənəvi və sosial mediada məsuliyyətliliyin artırılmasının əhəmiyyəti vurğulanıb.

Administrasiya rəhbəri müasir dövrdə vahid informasiya məkanının mövcud olduğu şəraitdə medianın ən mühüm funksiyalarından birinin milli maraqların qorunması zəruriyyəti olduğunu vurğulamışdır: "Milli maraqları hər şeydənüstün tutmaq, vətəndaşları, cəmiyyəti vahid məqsəd uğrunda səfərbər etməkdir. KİV-lər Azərbaycanın konstitusiya quruluşu, ərazi bütövlüyü, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, milli təhlükəsizlik və digər bu kimi məsələlərdə kifayət qədər həssas davranmalı, cəmiyyətə milli təəssübkeşliyin nümunəsini təqdim etməli, onun obyektiv və operativ informasiya ehtiyacını ödəmək missiyasını milli maraqlarla uzlaşdırmalıdırlar. Vətənpərvərlik, milli dövlətçiliyə sədaqət, milli maraqlar uğrunda prinsipiallıq KİV-lərin fəaliyyətinin başlıca elementlərini təşkil etməlidir" [3].

Hazırda dünyada geosiyasi rəqabət məkanı olan xeyli sayda regionlar və dövlətlər mövcuddur. Onların sırasında Azərbaycanın da yerləşdiyi Cənubi Qafqaz regionu var. Bu region uğrunda gedən geosiyasi rəqabət Cənubi Qafqazda yer alan digər dövlətlər kimi Azərbaycanın da informasiya siyasətinə bilavasitə təsir göstərir. Lakin burada gedən rəqabət özünü həm də informasiya məkanında aydın büruzə verir. Bu

mənada qeyd olunan rəqabətdən qalib ayrılmağın əsas şərtlərindən biri də qabaqcıl informasiya infrastrukturuna malik olmaqdır.

İnformasiya müharibəsi, informasiya qarşıdurması da elə bu kontekstdə özünü qabarıq ifadə edir. Bütün bu proseslərin həyata keçməsində, müəyyən nəticələrin əldə olunmasında isə KİV-in üzərinə böyük missiya düşür. Çünki yuxarıda qeyd olunan proseslərin reallaşmasında obyekt və subyekt olaraq media vasitələri mühüm funksiyalar yerinə yetirirlər. İlk növbədə ona görə ki, dövlətin informasiya siyasətinin yerli, regional, qlobal miqyasda özünü göstərməsi və bunun hansı sürətlə baş verməsi məhz mediadan asılıdır. Media özü də bu prosesdə iştirak etməklə həmin siyasətin cəmiyyət tərəfindən hansı formada qəbul olunmasına birbaşa təsir göstərir. Eyni zamanda, medianın özünün siyasiləşməsi hallarının da mövcudluğu artıq onu siyasətin ayrılmaz tərkib hissələrindən birinə çevirmişdir.

## IV. INFORMASIYA TƏHLÜKƏSİZLİYİ SÖZ AZADLIĞININ PARADİQMASI KİMİ

Bu gün Azərbaycan eyni zamanda dünyada sülhün, təhlükəsizliyin möhkəmlənməsinə töhfəsini verməyə çalışır, sivilizasiyalararası dialoq təşəbbüslərində fəal iştirak edir. Müasir dövrdə bütün dünyada insanlar üçün obyektiv, qərəzsiz, vicdanlı informasiyanın açıq olması son nəticədə həm də Yer üzündə sülhün, təhlükəsizliyin möhkəmlənməsinə, ölkələr və xalqlar arasında əməkdaşlığın, sivilizasiyalararası dialoqun genişlənməsinə xidmət edir. Bu baxımdan Azərbaycanın nüfuzlu xəbər agentliyi ilə əməkdaşlığın dərinləşdirilməsi, beləliklə regionla informasiya mübadiləsinin gücləndirilməsi quruma üzv informasiya agentliklərinin maraq dairəsindədir.

Günümüzdə informasiya sərhədləri çox sürətlə aşaraq gerçəklik haqqında yeni anlayış formalaşdırır, yeni qlobal diskussiyalara zəmin yaradır. Dünya miqyasında inteqrasiya ictimai həyatın bir hissəsinə, inkişaf amilinə, yeni dövrün rəmzinə çevrilmişdir. Bu və ya digər nöqtədə baş verən dəyişikliklər isə çox vaxt məhz kütləvi informasiya vasitələri sayəsində tezliklə bütün planetə yayılır. KİV-lərin sayəsində dünya daha şəffaf və açıq görünür – informasiyanın açıqlığı problemləri daha tez həll etməyə, onları daha asan istiqamətləndirməyə imkan verir. Bu baxımdan hər bir kütləvi informasiya vasitəsinin peşə etikasına riayət etməsi, qərəzsiz, obyektiv, vicdanlı olması vacib şərtlərdəndir. Təəssuf ki, hazırkı reallıqda Azərbaycanda bir çox kütləvi informasiya vasitələri bu ümdə prinsiplərə əməl etmək istəmirlər.

Yəqin çoxları razılaşar ki, Azərbaycanın bir sıra mətbuat orqanlarında bilərəkdən yalan, böhtan xarakterli, yaxud qeyri-dəqiq informasiyaların dərci, vəzifəli şəxslərin, ictimai-siyasi xadimlərin heysiyyatına toxunan, onların nüfuzuna xələl gətirən əsassız, sifarişli yazıların dərci də adi hal almışdır. Bu cür qəzetlərdə qərəzsizlik, obyektivlik, vicdanlılıq, hadisələrə obyektiv baxış kimi ümdə jurnalistika prinsiplərindən danışmaq isə sadəcə mümkün deyildir. Kütləvi informasiya vasitələrində özünü göstərən belə neqativ tendensiyalar heç də ölkə Konstitusiyasının və qanunlarının kobud şəkildə pozulması, peşə etikasına riayət olunmaması ilə məhdudlaşmır. Normal jurnalist fəaliyyəti ilə auditoriya əldə edə bilməyən və yaxud buna peşəkarlığı çatmayan bu cür kütləvi informasiya vasitələri “çıxış yolu” kimi əsasən sensasiya xarakterli, insanları qorxu, vahimə, gərginlik və stress içində saxlayan informasiyalara daha çox yer verirlər. Əslində, bu neqativ meyilləri məsuliyyətsiz və qeyri-peşəkar jurnalistlərin “mənəvi terror”u kimi də səciyyələndirmək olar.

Hazırda Azərbaycan vətəndaşlarının həyatındakı problemlər təkcə ekoloji problemlərlə deyil, həm də neqativ enerjili, qeyri-real informasiyaların qəbulu ilə bağlıdır. Belə neqativ informasiyanın insan səhhəti üçün fəsadları ümumən havanın, suyun, ətraf mühitin çirklənməsindən dəyən zərərdən heç də az deyil. İş o yerə çatıb ki, bəzi vətəndaşlar sakit həyat tərzi keçirmək, stress, kəskin emosiya, depressiya, frustrasiya kimi mənfi psixoloji hallardan uzaq olmaq üçün informasiya eşitmək istəmir, az qala özlərini kütləvi informasiya vasitələrindən təcrid edirlər. Obyektiv və qərəzsiz informasiya mübadiləsinin vacibliyi ilə bağlı fikirlərin bir hissəsi də məhz bu reallıqlardan qaynaqlanır.

## V. DÖVLƏT İNFORMASİYA SİYASƏTİ VƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ

KİV sahəsində informasiya siyasətinin əhatə etdiyi məsələlərdən biri də milli təhlükəsizliyin tərkib hissəsi olan informasiya təhlükəsizliyinin təmin olunmasıdır. Dövlətin milli təhlükəsizlik siyasəti və onun KİV-də işıqlandırılması ilə bağlı Müstəqil Jurnalistlər Liqasının hazırladığı “Mətbuatda dövlət siyasətinin təbliğinə dəstək” adlı bülletendə göstərilir ki, dövlətlərin milli təhlükəsizlik siyasətləri bir-birindən fərqlənsə də, onlar ən azı üç əsas məsələni əhatə etməlidirlər: beynəlxalq sistemdə dövlətin rolu, dərk olunmuş yerli və beynəlxalq problemlər, hallar və bu problemlərə və hallara qarşı iştirakçı aktorların həyata keçirməli olduğu öhdəliklər [2, 23].

İnformasiya təhlükəsizliyi, onun müasir texnogen, vətəndaş və informasiya cəmiyyətdəki rolu, anlayışı, məqsəd və vəzifələri barədə bəhs etməzdən əvvəl onun siyasi sistemdəki, belə demək mümkünsə, multidistiplinar, institutlararası rolu müəyyənləşdirilməlidir.

Dövlət informasiya siyasətinin obyekti cəmiyyətin informasiya sferası, predmeti isə informasiya münasibətləridir. Qeyd edilən informasiya siyasətinin növlərinə gəlincə, aşağıdakıları göstərmək olar:

Birincisi, bu, informasiyalaşdırma sahəsində həyata keçirilən siyasətdir. Müasir cəmiyyətdə yeni informasiya texnologiyalarının əhəmiyyəti o dərəcədə yüksəlmişdir ki, hansısa ölkənin sosial və iqtisadi tərəqqisini göstərilən müvafiq texniki təminat olmadan təsəvvür etmək belə mümkün deyil.

İkincisi, KİV informasiyanın toplanması, emalı və yayılması üzrə məsuliyyət daşıyan əsas sosial institutdur. Bu səbəbdən KİV sahəsində dövlət siyasəti, ümumiyyətlə, dövlət informasiya siyasətinin olduqca vacib istiqamətlərindən biridir.

Üçüncüsü, bu, informasiya təhlükəsizliyi və informasiyanın mühafizəsi sahəsində siyasətdir. Sosial və siyasi həyatda informasiyanın rolu onu istənilən antidövlət və anticəmiyyət qüvvələrinin təsir obyektinə çevirir, müasir dövrdə isə belə qüvvələr rolunda təkcə düşmən dövlət yox, həm də terrorçu qruplaşmalar çıxış edə bilərlər. Bundan başqa müasir cəmiyyətdə informasiya konkter iqtisadi məzmun qazanır və bu səbəbdən informasiya təhlükəsizliyi və informasiyanın

mühafizəsi dövlətin informasiya siyasətinin vacib istiqamətlərindən biridir.

İnformasiya siyasətinin məqsədi vətəndaşların və ölkənin informasiya-psixoloji təhlükəsizliyini təmin etmək üçün bilgilər sisteminin əldə olunması, dövlət siyasətinin inormasiya-analitik müşayiəti, idarəçiliyin əsas subyekti kimi dövlət tərəfindən qəbul olunmuş qərar və proqramları əhaliyə çatdımaqdır.

Bu mənada müasir dövrdə hər bir dövlət, o cümlədən Azərbaycan üçün aktual məsələlərdən biri də informasiya təhlükəsizlyinin təmin olunmasıdır. İnformasiya təhlükəsizlyi deyərkən informasiya məkanında ölkənin milli maraqlarının müdafiəsi başa düşülür. Burada KİV-in də üzərinə böyük missiya düşür. İlk növbədə ona görə ki, dünya praktikasında da toplanmış təcrübəyə əsasən, mövqe və mənsubiyyətindən asılı olmayaraq, KİV informasiya təhlükəsizliyinin daxil olduğu milli təhlükəsizlik və maraqlar istiqamətində dövlət siyasətinin işıqlandırılması və bu zaman obyektivliyin qorunmasına maksimal dərəcədə riayət etməyə cəhd göstərməli, bununla bağlı dövlət siyasətinin cəmiyyətə ədalətli, obyektiv və qərəzsiz şəkildə çatdırılmasına çalışmalıdır. Çünki bu, KİV-in özündən tutmuş cəmiyyətin təhlükəsizliyinin bərqərar olmasında, onun kənar və təhlükəli qüvvələrin əlində manipulyasiya vasitəsinə çevrilməməsində vacib əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, avqust ayının 29-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin yanında dövlət orqanlarının informasiyanın verilməsinə məsul struktur bölmələrinin və kütləvi informasiya vasitələri rəhbərlərinin müşavirəsi keçirilib. Akademik R. Mehdiyevin geniş məruzə ilə çıxış etdiyi müşavirədə kütləvi informasiya vasitələrinin rəhbərləri və dövlət orqanlarının rəsmi şəxslərinin iştirakı ilə Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi ilə bağlı aktual məsələlər müzakirə edilib, ənənəvi və sosial mediada məsuliyyətliliyin artırılmasının əhəmiyyəti vurğulanıb.

Administrasiya rəhbəri müasir dövrdə vahid informasiya məkanının mövcud olduğu şəraitdə medianın ən mühüm funksiyalarından birinin milli maraqların qorunması zəruriyyəti olduğunu vurğulamışdır: “Milli maraqları hər şeydən üstün tutmaq, vətəndaşları, cəmiyyəti vahid məqsəd uğrunda səfərbər etməkdir. KİV-lər Azərbaycanın konstitusiya quruluşu, ərazi bütövlüyü, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, milli təhlükəsizlik və digər bu kimi məsələlərdə kifayət qədər həssas davranmalı, cəmiyyətə milli təəssübkeşliyin nümunəsini təqdim etməli, onun obyektiv və operativ informasiya ehtiyacını ödəmək missiyasını milli maraqlarla uzlaşdırmalıdırlar. Vətənpərvərlik, milli dövlətçiliyə sədaqət, milli maraqlar uğrunda prinsipiallıq KİV-lərin fəaliyyətinin başlıca elementlərini təşkil etməlidir” [3].

Hazırda dünyada geosiyasi rəqabət məkanı olan xeyli sayda regionlar və dövlətlər mövcuddur. Onların sırasında Azərbaycanın da yerləşdiyi Cənubi Qafqaz regionu var. Bu region uğrunda gedən geosiyasi rəqabət Cənubi Qafqazda yer alan digər dövlətlər kimi Azərbaycanın da informasiya siyasətinə bilavasitə təsir göstərir. Lakin burada gedən rəqabət özünü həm də informasiya məkanında aydın büruzə verir. Bu mənada qeyd olunan rəqabətdən qalib ayrılmağın əsas şərtlərindən biri də qabaqcıl informasiya infrastrukturuna malik olmaqdır.

İnformasiya müharibəsi, informasiya qarşıdurması da elə bu kontekstdə özünü qabarıq ifadə edir. Bütün bu proseslərin həyata keçməsində, müəyyən nəticələrin əldə olunmasında isə KİV-in üzərinə böyük missiya düşür. Çünki yuxarıda qeyd olunan proseslərin reallaşmasında obyekt və subyekt olaraq media vasitələri mühüm funksiyalar yerinə yetirirlər. İlk növbədə ona görə ki, dövlətin informasiya siyasətinin yerli, regional, qlobal miqyasda özünü göstərməsi və bunun hansı sürətlə baş verməsi məhz mediadan asılıdır. Media özü də bu prosesdə iştirak etməklə həmin siyasətin cəmiyyət tərəfindən hansı formada qəbul olunmasına birbaşa təsir göstərir. Eyni zamanda, medianın özünün siyasiləşməsi hallarının da mövcudluğu artıq onu siyasətin ayrılmaz tərkib hissələrindən birinə çevirmişdir.

## VI. İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ MİLLİ TƏHLÜKƏSİZLİYİN ELEMENTİ KİMİ

Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasından, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir. Ölkəmizin informasiya sahəsində təhlükəsizliyinin təmin olunması üçün ölkədə informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistem və informasiya infrastrukturu inkişaf etdirilir və möhkəmləndirilir. Son illər informasiya-kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi istiqamətində bir çox mühüm tədbirlər görülmüşdür. Azərbaycanda inkişafın prioritet istiqamətlərindən biri olan İKT sahəsi bu gün keyfiyyətcə yeni və yüksək inkişaf mərhələsinə daxil olur [4].

Hər bir cəmiyyət informasiya təhlükəsizliyini ümumi milli təhlükəsizliyin vacib komponenti hesab edir. İnformasiya təhlükəsizliyi mövcud informasiya mühitinin potensial təhdid və təhlükələrdən qorunmasıdır. Tədqiqatçılar “informasiya təhlükəsini” dövlət, cəmiyyət, sosial qruplar və fərdlərin informasiya resursları və informasiya axınlarının kifayət qədər insanların psixikasına, fərdi və ictimai şüuruna, həmçinin kompüter şəbəkəsinə və informasiyanın digər texniki mənbələrinə mənfi təsirdən “Qorunmaq, informasiya təhlükəsinə qarşı durmaq üçün müdafiə olunmasını təmin etmək üsulu” kimi [5, 159] səciyyələndirirlər.

Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması, XXI əsrin modernləşmə və qloballaşma çağırışlarına uyğun olaraq vətəndaş-cəmiyyət-dövlət üçlüyünün inkişafında informasiya resursları və texnologiyalarının rolunun artması vəzifələri, apriori, milli təhlükəsizliyin təmin edilməsi sistemində informasiya təhlükəsizliyinin rolunu da ön mövqeyə çıxarır. Belə bir zəruriyyət özündə bir sıra özünəxas işlək istiqamətləri ehtiva edir:

- milli maraqlar, onlara qarşı mümkün təhdidlər və bu təhdidlərdən müdafiənin təmin olunması informasiya və informasiya mühiti üzərindən ifadə edilir, reallaşdırılır və həyata keçirilir;
- insan və onun hüquqları, informasiya və informasiya sistemləri – bu, təkcə informasiya təhlükəsizliyinin obyekti olmaqla qalmır, eyni zamanda təhlükəsizlik anlayışının

ehtiva etdiyi bütün sahələrin obyektlərinin əsas elementi kimi çıxış edir;

- milli təhlükəsizliyin qarşısında duran vəzifələrin həlli aparıcı elmi-təcrübi metod kimi informasion yanaşmadan istifadə ilə bağlıdır;
- milli təhlükəsizlik probleminin özü belə kifayət qədər bariz ifadə olunmuş informasion xarakter daşıyır.

Buna görə də təsadüfi deyildir ki, informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında ən mühüm və uzunmüddətli vəzifələrdən biri kimi bəyan edilmişdir.

Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası informasiya təhlükəsizliyi siyasətinin (4.3.11) definisiyasını verir: "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir.

Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması üçün ölkədə informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistem və informasiya infrastrukturu inkişaf etdirilir və möhkəmləndirilir. Dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qərarların qəbul edilməsinin informasiya təminatının həyata keçirilməsi məqsədilə obyektiv və mühüm məlumatlar toplanılır" [6].

Azərbaycan Prezidentinin köməkçisi, PA ictimai-siyasi məsələlər şöbəsinin müdiri professor Əli Həsənovun fikrincə, informasiya təhlükəsizliyi mühitinin mövcud vəziyyətinin təhlili göstərir ki, şəxsiyyət, dövlət və cəmiyyətin həyati əhəmiyyətli bütün maraqlarının daha yüksək və təkmil səviyyədə qorunması hazırda həm də ölkənin informasiya təhlükəsizliyi siyasətinin əsas məqsədi kimi çıxış etməli, onun dinamik inkişaf səviyyəsinin tələblərinə cavab verməli, milli informasiya resurslarının reyestri yenidən aparılmalı və təkmilləşdirilməli, informasiya təhlükəsizliyinin meyarları və metodları hərtərəfli işlənilməlidir [7].

Bütövlükdə, bu gün dövlət hakimiyyəti orqanlarında informasiya təhlükəsizliyi anlayışının və strukturunun müəyyən edilməsi məsələsində iki tendensiya formalaşmışdır. Belə demək mümkünsə, humanitar istiqamətin nümayəndələri informasiya təhlükəsizliyini yalnız sirr, məxfilik institutu ilə əlaqələndirirlər. Birincilərdən fərqli olaraq güc strukturlarının nümayəndələri isə informasiya təhlükəsizliyi sferasını informasiya sahəsindəki praktiki olaraq bütün münasibət və məsələlər kompleksinə müncər etməyi təklif edirlər. Mahiyyəti etibarilə bu, informasiya təhlükəsizliyinin informasiya mühiti ilə bütövləşməsi anlamına gəlir. Lakin qeyd etməliyik ki, biri digərini inkar edən belə bir "zorən ilhaq" nəinki dövri ədəbiyyatda, həmçinin qanunverici aktlarda da mücərrədlik yaradır.

Beləliklə, informasiya təhlükəsizliyi dedikdə, ölkənin milli maraqlarının mövcud informasiya mühitində daxili və xarici təhdidlərdən qorunması nəzərdə tutulur. Heç şübhəsiz, belə bir alqoritmdə əvvəl də qeyd etdiyimiz kimi, şəxsiyyət, cəmiyyət və dövlətin həyati vacib maraqlarının tənasübü əsas götürülməlidir. Bu isə öz növbəsində həm Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" qanununun məntiqinə, həm də Milli Təhlükəsizlik konsepsiyasının məzmununa uyğun gəlir.

İKT-nin inkişafını dövlət informasiya siyasətinin mühüm elementi kimi dəyərləndirən Prezident İlham Əliyev hesab edir ki, gələcəkdə informasiya-kommunikasiya texnologiyaları sahəsi dünyada aparıcı sahə olacaqdır və olmalıdır. Bu sahədə kim qabaqda gedirsə, o da söz sahibi olacaqdır. Çünki bugünkü dünya bundan 10 il, 20 il əvvəlki dünya deyildir. Texnologiyalar, informasiya təhlükəsizliyi, kiberhücumlara qarşı təhlükəsizlik tədbirləri artıq ön plana çıxır və gələcək dövrün güclər nisbəti də məhz bu sahədə müəyyən ediləcəkdir.

## ƏDƏBİYYAT

[1] Azərbaycan Respublikasında KİV-in İnkişafına Dövlət Dəstəyi Konsepsiyası. www.presscouncil.az.

[2] Mətbuatda dövlət siyasətinin təbliğinə dəstək: reallıqlar, problemlər, vəzifələr. Bakı: Şəms, 2009, 62 s.

[3] Ramiz Mehdiyev, Azərtac, http://news.milli.az/politics/291840.html

[4] Qasımov E. İnformasiya təhlükəsizliyinin qorunması dövlət siyasətinin prinsipləri. "Respublika", Bakı, 2012, 22 iyun

[5] Шеринов Л.И. Информационная безопасность России. Безопасность. Инф. об. 1993, №11-12

[6] Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası. http://www.migration.gov.az/images/pdf/

[7] Əli Həsənov. Azərbaycan Respublikasında informasiya fəaliyyəti və təhlükəsizliyi siyasəti// "Geostrategiya", 2014, № 01(19), s. 3-15

[8] Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Parlament Assambleyasının II sessiyasındakı çıxışı // "Xalq qəzeti", Bakı, 2012, 4 aprel


Şəkil - 1
Dövlət
Qanunvericilik
TV - Radio
Media
Dövlət
Müstəqil
İctimai
"KİV" haqqında Qanun
"İnformasiya azadlığı haqqında" Qanun
"İnformasiya əldə etmək haqqında" Qanun
"İctimai teleradioyayım haqqında" Qanun
"Dövlət sirri haqqında" Qanun»
"Teleradioyayım haqqında" Qanun
"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanun


Şəkil - 2
Müasir medianın tranformasiya istiqamətləri
Transformasiya istiqamətləri
Rəqəmsallaşma
Konvergensiya
Qloballaşma
Diversifika-
siya